# *Yağış saniyəsi*

*<u>X</u>osrov <u>B</u>arışan*

***Şeir toplusu***

Yazar: Xosrov solh konəndə sərdəri(Barışan)
Kitabın adı: Yağış saniyəsi
Yayınlayan: yazan
Kitabın ölçüsü: Cibi
Səfhə sayısı: 88
Basğı növbəsi: İlk basğı 2004
Basım evi: Elmiyə Təbriz
Şabək:964-06-6301-8
Tayp: İslam Əhmədi
Səfhə düzənləməsi: Rəsul Rəhnumun
Cild düzənlənməsi: Əliriza Lotfi, Hadi musəvi
Dəyər: 500 tümən
E-mail:barishan1983@yahoo.com
barisan@box.az
Weblog: **barishan.blogsky.com**

# İçindəkilər


Tanıtım ........................................................... 7

Önsüz yerinə ..................................................... 9

**Sərbəst şeirlər:**

Yağış saniyəsi .................................................. 12

Düş, yaş, şeir.................................................... 13

Mavi boğulma .................................................. 14

Serçə .............................................................. 15

Nə sən, nə mən................................................. 16

Heykəl............................................................. 19

24 saat ............................................................ 20

Yapraq ............................................................ 22

Gizlicə Ağlayış ................................................ 23

Gözləyən ......................................................... 27

Atların yarışı ................................................... 28

Toy................................................................. 29

Sevdamızın şəhəri............................................ 30

Qərib axtarış ................................................... 31

Körpə sayaq ağlayış.........................................*32*

Yaşayış ................................................................ 35
Odda doğuş............................................................ 36
Kəssək................................................................... 37
Şəfa otu................................................................. 38
Ayrılığın bəlgəsi .................................................... 40
Şənlik törəni.......................................................... 41
Yalan olanda.......................................................... 42
Orman.................................................................... 43
Dəniz qıyı sənfonisi ............................................... 45
Bir anda da ........................................................... 46
Fidan...................................................................... 47
Yağışda vurğun...................................................... 48
Sevda filimi ........................................................... 50
Adres...................................................................... 51
Ayrılığın musiqisi.................................................. 52
Yaranış filsıfisi ..................................................... 53
Baxışda quş........................................................... 54
Axşamla səhər....................................................... 55
Baxış qurşağı ........................................................ 57

Parlaq od........................................................58
Olaylar ..........................................................59
Qərənfillə ilan ................................................60
Acıqlı............................................................61
Ürək sanki mən ..............................................62
Barış, gülüş ...................................................63
Zaviyə ...........................................................64
Yanındakən ....................................................65
İtgin...............................................................66
Üsgük.............................................................67
Zəng ..............................................................68
Sənlə çağ........................................................69

**Klasik şeirlər:**

Ayaqsız gəliş.................................................72
Özüm özümdə ................................................73
İndi də ...........................................................74
Həsrət duvarı..................................................75
Özü gəlsin .....................................................76
Qoşa ..............................................................77

Odunda ........................................................... 78

Durma yaz ...................................................... 79

Yaxa............................................................... 80

İlqara.............................................................. 81

Taktik ilən....................................................... 82

Uyara .............................................................. 83

Kül .................................................................. 84

Məktub bayatısı .............................................. 85

Al masa........................................................... 86

Aşiqliq yeri ..................................................... 87



## TANITMA:

*Xosrov solh konəndə 1983üncü ildə Təbriz şəhərində dünyaya göz açdı. Onun şeirlərinin çoxu sərbəst, iki beyitli, qəzəl qalıbındadırlar. Ancaq şair hər üç qalıbda da yenilik yaratmağa çalışır.*

***Xosrov** öz təxəllüs adını **Barışan** seçibdir. bu ad öz soy adının Türkcə anlamıdır. O bilimyurdunda oxuyan illərdə **Aşina** adlı derginin ədəbi başyazarlığını üstələnmişdi. Ayrica iki şeir özəl sayısı dərgisinin(şəm-i xəyal adlı) başyazarlığını da üstələnmişdi. Şeirdən əlavə, **Barışan** həkayə yazmağa da maraqlı birisidir.*

*Bu kitab **Xosrov Barışan**ın 2004 ilində Təbrizdə yayınlanan* YAĞIŞ SANİYƏSİ *adlı kitabıdır və ərəb əlefbasından latın əlefbasına köçürülmüşdür.*

**KİTABLAR:**

*1.Yağış saniyəsi*
*2.Bu yağış tərsə yağır*
*3.Mən sənə məcburam(**Attila ilhan**dan uyğunlaşdırma)*
*4.Eşq 29 hərf əst(İbrahim sədridən farscaya çeviri)*
*5.Sevda küçəsi(İbrahim sədridən uyğunlaşdırma)*
*6.lui brain həyatı(Köçürmə)*
*7.Xəyyamdan Türkcəyə çevirmələr kitabında bir neçə rübayi.*
*8.Serdar özkanın Kayıp gül romanını farscaya çevirisi(Rəsul Məlikzadəylə birlikdə)*
*9.Övliya çələbi səyahətnaməsinin Azərbaycan bölümünü farscaya çevirisi*
*10.Türkiyə Türkcəsinin Azərbaycan Türkcəsiylə lüğət izahi*

**ÖDÜLLƏR:**

*1.Xətt-i sevvom yarışmasında üstünlər ödülü.*
*2.Qızıl alma şeir yarışması, birinci ödüllər.*

# ÖNSÜZ YERİNƏ:

*Anlım ilə dönərgənin*
*Masasının arasına*
*Yazğının xudkarını*
*Sıxışdırıb*
*Daşıdan duyğuların cövhərindən*
*Yazıb da yaratmışam*
*Dəftərində zamanın*
*Şeirimin hal romanın.*

*Mən dərdimi, qəmimi, sevincimi, şənliyimi siqarın tüstüsündə yox, tez geçən uyuşdurucu nəşəsində yox, alkolun xomasında yox, şeirimlə paylaşaram. Hara gedərsəm kölgə kimi mənimlədir. Demək mən ilə doğulmuş, mən ilə yaşayır. Ancaq mən ilə birlikdə ölməyini bilməyirəm, olabilsin ki...*

*Sonunda bu toplunun hazırlanmasında bütün əməkləri geçən şəxslərə sağollarımı bildirərək Bu toplunu bütün gözəllikləri duyan, sevən və yaşadan varlıqlara sunuram.*

**Xosrov Barışan / 2004**

# BİRİNCİ BÖLÜM

# *Sərbəst şeirlər*

# YAĞIŞ SANİYƏSİ

*Burax sevgilim,*
*Burax...*
  *Söz yüklü duyğu buludlarımızı,*
                    *Düşüncə yeli aparsın.*
*Və bir çırpınış şimşəyi,*
            *Və bir ıldırım səsi*
                      *Qanadlansın...*
*Səhər hansı saniyədə yağış yağacaq?!*

# DÜŞ, YAŞ, ŞEİR...

*Xəyalıvın lay-layını bükdüm ürək buxçasına.*
*Mən bükəli; yaş da qaçıb çıxdı gözün taxçasına,*
*Duyğu sözün al çiçəyin əkdi şeir baxçasına...*

# MAVİ BOĞULMA

*Dəniz boylanaraq baxır mənə.*
*Dalğalar*
*Gözlərimdə doğulurlar...*
*Baxışım*
*Dəniz quşu...*
*Qanad çalır...*
*Doğru uçur göy üzünə.*
*Və*
*Dənizlə göyün*
*Maviliyinin düz ortası...*
*Boğuluram gözlərində!!!*

# SERÇƏ

*Ürəyim*
*Çırpınır*
*A..ah,*
*Serçə əlində titrəyir*
*Yüksək*
*Bağırmaq istəyir:*
*((**Burax məni...***
***Burax məni...***
***Burax məni...**))*

□□□

*Buraxsan da,*
*Faydası yox!!!*
*Sınıb quşun qanadları.*

# NƏ SƏN, NƏ MƏN!

*Və...*
*Yaşayış güzgü sayaq!*

□□□

*Nə sən bir yanan şamsan,*
*Nə mən*
*Bir od tutan kəpənək!*
*Sadəcə*
*Bir soyuq gecədə*
*Yara göyərdən yataqda*
*Sayıqlamışıq*
*Təb bələyində.*
*Elə bu.*

□□□

*Nə sən bir leylisən;*
*Nə mən bir məcnun!*
*Sadəcə;*

*Yuxu dibli çöllərdə,*
*Qovala-qaçdı oynamışıq*
*Uşaqlğın xatirinə.*
*Elə bu.*

□□□

*Nə sən bir içkisən,*
*Nə mən bir sərxoş!*
*Sadəcə;*
*Varaqlamışıq*
*Bir xumarlıq romanın.*
*Elə bu.*

□□□

*Nə sən bir şirinsən,*
*Nə mən bir fərhad!*
*Sadəcə;*
*Dağların heykəlini*
*Yolların fırlanışında qazmışıq...*
*Elə bu.*

□□□

*Pəs nəydi bu?!*

*İndi nədir?!*

□□□

*Aha..n*
*Ahan*
*Həə..ə*
*Yansılarkən*
*yaşamağın davranışın*
*Güzgüyə göz*
*Zilləmişik*
*Elə bu.*

# HEYKƏL

*Dodağımda*
*Öpüşüvün ayaq izi,*
*Sanki;*
*Həsrət heykəlidir*
*Qəlbimin bülvarında!!!*

# 24 SAAT

*Qaranlıqdan*
*Addımımı əsdirmə.*
*Biz bir*
*24 saatıq.*
*Sən;*
*aydınlıqlar qucağında doğulan*
*Gündüz.*
*Mən;*
*Qaralıqlar qollarında boğulan*
*Gecə.*
*Nədəni;*
*Qan pəncəsində oğulan*
*Günəş!*

□□□

*Qaranlıqdan*
*Addımımı əsdirmə.*

# YAPRAQ

*Səni görcək*
*Görüşündən səhərin*
*Yaprağın ağlamağın*
*Anlayıram...*

# GİZLİCƏ AĞLAYIŞ

*O gecə mən də ağladım*
*Gizlicə...*

*Ey ana...*
*Sanmaki daşdir ürəyim,*
*O gecə mən də ağladım.*
*Bir ışıq şırıldadı gözlərimin*
*Damcısına,*
*Bir hüzün köçdü mənim şənliyimə.*
*Çökdü üzə baxışlarım.*
*Anladım onda boşun boşluğunu.*
*Ulduz-ulduz ışıldadım*
*Zamanənin*
*Qaragöy səfhəsinə.*

*O gecə mən də ağladım...*
*Özüm yığışdım özümə,*
*Oldum ana!!!*

*Bağışla bu kəz məni,*
*Həmişə tək.*
*Roluvu yansıladım taatrında yaşayışın,*
*doğdum uşaq,*
*Doğumun sancısını hiss elədim.*
*Və körpəmi*
*Sevgimin damarından əmişdirib,*
*Düşüncəmin hörüklərində bələyib,*
*Nəfəslərin nənnisində*
*Ahımın lay-lasında*
*((Lay-lay dedim ki yatsın,*
*Qızıl güllərə batsın.))*
*Tumarladım saçlarını.*
*Baxışın dodağiylə öpdüm üzün*
*Və sərgisində canımın*
*Göstərib yaşayışın fəlsəfəsin gözlərinə,*
*Ağlayanda*
*Duyğular bağrına basdım biləsin.*
*Xəstələnəndə*
*Gözlərim yumulmadı.*
*Ürəyi edib sipər sancılara,*
*Balaca başmağına*

*Tikdirib yol yorudan gözlərimi,*
*Balaca ayaqlara bir öpücük*
*Və ağladım...*
*Onu* **1***də həp böyütdüm.*

*O gecə mən də ağladım...*
*Çiçəklənəndə arzılar,*
*Soldu gülüm.*

*Əh, əh...*
*Əhə, əhə...*
*Bəsdir utan kəs səsivi.*
*Ana olmaq ürək istər,*
*Ana olmaq ciyər istər,*
*Ana olmaq dözüm istər,*
*Ana olmaq sevgi istər...*
*Var mi buna cəsarətin!?*
*Yo..ox...*
*Yo..ox...*
*Olanmasan,*
*Həmin elə*

*Sən özüvə*
*O quru ərkəkliyin sımışqasın çıtlayaraq*
*Şışırt qarın.*

*O gecə mən də ağladım...*
*Ürəyimdə mərsiyə,*
*Oxudu növhə mənə duyğularım.*
*Ürəyim çırpdı özün*
*Qəfəsin miləsinə.*
*Öz içimdə ağladım.*
*Sənə bir söz demədim,*
*Deyənmədim!!!*
*Çünki sən...*
*Çünki sən bir anasan,*
*Dözənməsən ax balavın gözyaşına.*

*O gecə mən də ağladım,*
*Gizlicə...*

# GÖZLƏYƏN

*Diləklərimin gəmisi*
 *Umud sahilində dayanıb*
 *Yelkən açıb sabahlara*
 *Səni gözlür...*

# ATLARIN YARIŞI...

*Saat:...*
*Bura;*
*Atların yarış meydanı.*

□□□

*Qarışqa;*
*Əzilmək qorxusunda!*
*At;*
*Ağrıdan qurtulsun deyə,*
*Gərək qaça!*
*Çapar*
*Ödülü qazanmaq həyəcanında!*

□□□

*Saat:..*
*Bura;*
*Atların yarış meydanı.*

□□□

*Və...*

# TOY!

*Gecənin çağ toyudur;*
*do..onu..ur,*
*do..onu..ur,*
*Qarşı nəfəslər!*
*Qara göy*
*Şabaş səpir;*
*Züyməyin sağlığına!*
*Ərə zorla verilən*
*Gəlinin*
*Həsrəti,çin*
*Güpsənirəm!*

# SEVDAMIZIN ŞƏHƏRİ

*Sevdamız adlı şəhəri*
*Ayrılığın qoşunları*
*Talanladı!!!*
*Sömürgəçi, pis ayrılıq*
*Kökümü yox etmədə!*
*Sevdamız adlı şəhərin*
*Dəyişdiribdir adını*
*Adın qoyub*
*Düş şəhəri!!!*

*Amma mən*
*Adıvı şeirimdə*
*Ölünməz edəcəyəm...*

# QƏRİB AXTARIŞ

*Nə qərib axtarışdır!*
*Cansız dirilər şəhrində;*
*Tekrarın tekrarında;*
*Özümün ilkində;*
*Sonumu axtarıram.*
*Hayandayam!?...*

# KÖRPƏ SAYAQ AĞLAYIŞ

*Bu gecə ağladım*
*O gözlərin ulduz senində*
*Bağıran həsrətlərin mahnısına.*
*Və boğuldum*
*O baxışların*
*Mavi dərinliyində.*

*Bu gecə ağladım*
*O əllərin*
*Göv-göv*
*Tikanlı yamaclarında*
*Bir ətirli çiçəyin ovuca sığınıb*
*İyləmək arzısına.*

*Bu gecə ağladım*
*Qamçıyla açılan ovuclara*
*Və dilədim*
*Pul-paranın çirkin gəmirən dişlərin də*
*Kəlbətin görməyini.*

*Bu gecə ağladım*
*Tikanlı kələfçəsin yaşayışın*
*Umud qoxuyan ayaqlarla*
*Əzənlərə.*

*Bu gecə ağladım*
*Cırıq, yırtıq paltarların*
*Soyuq, şaxtanın üstünə*
*Çomaq götürmələrinə.*

*Bu gecə*
*Olu ki*
*Qaqqıldadım*
*Çıraqqaların xoş yuxusuna.*
*Yo..ox...*
*Yo..x...*
*Yanlış.*

*Bu gecə yalnız ağladım*
*Bir kiçik saqqız satan uşağa*
*Şəhərin kölgəsinin qorxusunda*
*Ki pulun saymağını başarmayır!!!*

*Bu gecə ağladım*

## *Gələcəyə...*

*Bu gecə ağladım*
*Bütün körpələrin vərinə*
*Uşaqların hammısına.*

*Bu gecə ağladım...*
*Ağladım...*
*Ağladım...*
*Göylər də ağladı.*

# YAŞAYIŞ

*Çeşit-çeşit*
*Doğuldum baxışında,*
*Yaşadım gözlərində...*
*Sadəcə*
*Qocaldım baxışımda,*
*Öldüm gözlərimdə...*

# ODDA DOĞUŞ

*Mən səni*
*Gözlərimin yağmurunda yumuşam.*
*Ürəyin*
*Sarsıntılı tərpəmində*
*Sənfonivi dinləmişəm.*
*Ahımın aylasında,*
*Dodağımın çövrəsində*
*Rəsm etmişəm.*
*Uşaqlığın*
*((Qalx ayağa qalx,*
*Kimi sevirsən*
*Al yanıva bax...))*
*Oyununun hay-küyündə*
*Hiss etmişəm.*
*Sevgilərin magmasında,*
*Duyğuların püsgürüşündə*
*Yanmışam,*
*Kül olmayıb doğulmuşam.*

# KƏSSƏK

*Sevgi hasili becədən*
*Sevda adlı tarlanın toprağını*
*Əllərində bəhanənin*
*Kəssəyə day döndərmə,*
*Vurma ayrılıq daşına.*
*Sovrulacaq...*

# ŞƏFA OTU

*Buraxsa bu dərd məni;*
*Sənin üçün*
*Dağlara dırmaşaraq,*
*Aşaraq*
*Cızan, yaran*
*Qayaları*
*Boğan*
*Duman gədikləri*
*Şəfa verən o otu*
*Dərəcəyəm.*
*Tuxumların*
*Tapşıralı*
*Sunacağam əsən yelə*
*Püfləyərək...*

*Bəlkə bir gün gələ ki*
*Bitə...*
*Hər yerdə bitə*

*Əlaclı ot*
*Alçaq, ucaya baxmayaraq.*

# AYRILIĞIN BƏLGƏSİ

*Ayrılanda;*
*Addım, addım*
*Ayaq izin,*
*Döndü tikan kərdisinə!*
*Fasiləmiz tikan bağı!*
*Gələnmədim...*

# ŞƏNLİK TÖRƏNİ

*Qurma şənlik törəni*
*Boşluqlara yalan ilə.*
*Gözlərdən axan yaşı*
*İçmək ilə məst olma.*
*Ürəyin sızıldayan vay səsinə*
*Zülm ilə*
*Əylənib dans eləmə.*
*Yəni bir cümlə desəm:*
*Ağladıb gülmə tikan*
*Güldürüb*
*Gül...*
*Gül...*
*Gül.*

# YALAN OLANDA

*Işıqlananda baxışım;*
*Nə yazıq ki;*
*Gözlərimdə günəşim çıxdı yalan!*
*Dik yuxudan daşlandım;*
*Oldu gecə diləklərim;*
*Pəncərədən;*
*Gözvuran ulduzumu seçemmədim!...*

# ORMAN

*Göz önündə ormanım;*
*Xəzan gəlib*
*Güz mövsümü...*
*Düşdü yapraq*
*Mən düşürəm.*
*Yığırsan günlərimi*
*Ömür adlı bir ağac...*
*Yel də kərvanın sürür...*
*Gör necə fişıldayır...*
*Götürürsən addımı,*
*Naqus çalır*
*Zınqıro, dıngıro,*
*Xış...*
*Xış...*
*Xış...*
*Geçəndə yel dibindən*
*Təbiət sızlayaraq*
*Bayquşlar fişqa çalır!*

*Qarıltı mərsiyəsin*
*Qarqalar*
*Çalırlar A..!*
*Hey çalırlar..!*
*Və mən;*
*Kölgəsində ilanın*
*Yatmamış,*
*Nə’rə çəkən bir aslanam.*

# DƏNİZ, QIYI SƏNFONİSİ

*Dəniz gözlüm*
*Baxışıvın dalğaları*
*Ürəyimin qıyısına*
*Damğa vurur...*

□□□

*Dəniz, qıyı sənfonisin*
*Dəniz quşun dinləyərək*
*Tez qoşuram.*

# BİR ANDA DA...

*Mən...*
*Sən...*
*Çırpıntılar,*
*Ürəyimdə....*
*Ürəyində...*
*Çırpınışın dalğaları,*
*Duyğularım...*
*Duyğuların...*
*Dalğaların hayxırışı,*
*Sevgilərim...*
*Sevgilərin...*
*Hayxırışın ilişməsi...*
*Körpülərin oluşması...*
*Və sevdamız...*
*Bir anda da,*
*Zəlzələlər,*
*Vay Ayrılıq...*
*Çata cummuş gələcək!!!*

# FİDAN

*Baxışıvı əsirgəmə,*
*Gözlərimin baxçasına.*
*Cücərən bir fidanam,*
*Nəfəsi*
*Bil*
*Baxışında çəkirəm.*

# YAĞIŞDA VURĞUN

*Hələ də yadımdadır*
*Öylə yağışlı o gecə...*
*Damlaların barmaqları*
*Nə də uzmancasına*
*Gözəl-gözəl*
*Düşməyin piyanosun*
*Çalırdılar*
*Şırıltı notlarında*
*Oynurdu baxışmamız o ritm ilə.*
*Səslərin döyünməsi*
*Buludların əkkaslığı*
*Ildırım dürbünündən*
*Xəyilin neqativin əkislədi.*
*Sanki gecə*
*Özünə*
*Vurmuşdu vaks*
*Flaşda parıldırdı!*
*Ah...*

*Kəşkə o ıldırım*
*Bundan*
*Daha,*
*Artıq,*
*Bətər*
*Vuraydı onda məni.*
*Bəlkə;*
*Bundan da bətər vurğun olaydım...*

# SEVDANIN FİLMİ

*Sevdamızın senariyosun*
*Ürəyimin dosyasında*
*Yazıb da səhmanlayıb*
*Baxışmamızın ekranında*
*Oynatmışam.*

# ADRES

*Zamanənin batlağında*
*Dönərgənin girdabında*
*Bayquşların ölkəsində*
*Yalqızlığın şəhərində*
*Tülkülüyün meydanında*
*Bir küçə var*
*Meyxana orda...*

□□□

*Və mən*
*Bir masa üstündə uzanmış sərxoşam.*
*Saqi hey badə verir...*
*Eşiyin soyuq yeli*
*Saçımı kilkə edir.*
*Badə*
*Sınır calanır...*
*Vaxtım yox*
*Calanan duyğuları yerdən yığam!!!*

# AYRILIQ MUSİQİSİ

*Sən gedəndə;*
*Gözyaşların şırıltısı,*
*Damcıların şabba-şabbı*
*Ayrılığın melodisin*
*Çalırdılar...*
*Kədərin ritmində,*
*Həsrətin çalqısında!*
*Eşitmədin mi?!!*

# YARANIŞ FƏLSƏFƏSİ

*Elektron*
*Atomun çərdəyinin*
*Çövrəsinə...*
*Bir şamın*
*Bir kəpənək*
*Çövrəsinə...*
*Hər gəzəgən*
*Bir ulduzun*
*Çövrəsinə*
*Fırlanır A...*
*Mən də*
*Sənin.*

# BAXIŞDA QUŞ

*Dön bax mənə,*
*Bir quş olum,*
*Uçum;*
*Gözlərivin mavi, sonsuz göylerinə.*
*Bəlkə ta...*
*Yağış ardında boya bəzəkli qurşağı,*
*Ahım ilə rəsm eləyəm.*

# AXŞAMLA SƏHƏR

*Axşam çağıdır yenə...*
*Çalır*
*Gecənin məktəbinin zəngi!*
*Ağzımı zəncirləmişəm susmaqla!*
*Tummağın dolabında*
*Donubdur baxışlarım*
*Donub...*
*Donub...*
*Zindan olubdur həsrətin!*
*Ah...*
*Ah...*
*Çəkirəm ah...*
*Ahımsa*
*Barmaqlıqlarıdır zindanımın.*
*Yapışıb*
*Onlara sarılaraq*
*Baxıram ufuqlara*
*Uçur...*

*O qaranquş*
*Uçur ah...*
*Mən*
*Baxıram.*
*Günahım nə?*
*Nədir suçum?*

*Axı mən səhər çağı*
*Günəşin*
*Sarı saçlı qızına*
*Söz atmışam!*

# BAXIŞ QURŞAĞI

*Vurğunam...*
*Baxışıvın qurşağına.*
*Ürəyim*
*Ildırım təkin şaxır...*
*Gözlərimsə yağır,*
*Yağır...*
*Yağır...*
*Bəlkə sən*
*Baxışıvın qurşağını*
*Göstərəsən.*

# PARLAQ OD

*Gecə zil qaranlıqdır...*
*Alovlanıb od olmuşam,*
*Kömür qəmindən əl açanda ucaya*
*Yazıq...*
*Hevik...*
*Hey saralıb, hey qızarıb,*
*Həp yanıram...*
*Yer beşiyi, göy qucağı*
*Hayxırışım!*
*Vay ki parıldadanmıram!!!*
*Parıldıram...*

# OLAYLAR

*Olay quşu qanad çalır,*
*Kölgə düşür*
*Düşüncəmin otlağına...*
*O dəm yüksəlir baxışım,*
*Zirvədən*
*Baxır...*
*Baxır...*
*Sadəcə*
*Havadır quş qoruyan.*

# QƏRƏNFİLLE İLAN

*Çəmbəri qurmuş bir ilan...*
*Min ilandan oluşubdur bir ilan!!!*
*Quyruğu quyruğuna*
*Baş-başa...*
*Zəhirli xəndəyinin düz ortası*
*Gənc yaşında*
*Bir çiçək*
*Xoş qoxulu qərənfil o..,*
*Güldürür,*
*Həm də gülür.*

# ACIQLI

*Xəzər...*

□□□

*Dəniz acıqlıydı,*
*Mən də acıqlı,*
*Bir dalğa o bağırdı*
*Bir dəniz də mən..!*

# ÜRƏK SANKİ MƏN

*Mənim təkin*
*Qaçmağa başlır ürəyimdə sənə sarı,*
*Sinəmin zindani*
*Bir meydan olur!*
*İnanmasan,*
*Başıvı qoy sinəm üstə*
*Dinlə ayaq səslərini...*

# BARIŞ, GÜLÜŞ

*Kaş yenə də,*
*Bir daha da*
*Dodağımın bucaqları*
*Üzümün yamacına dırmaşaraq*
*Bir-birindən küsəydilər...*
*Olalı küskün olar,*
*Gülüşlə mən*
*Barışaydıq.*

# ZAVİYƏ

*Mənlə sən*
*Qovuşmada*
*Lab baş bucaqdaydıq gözəl,*
*Əl-ələ...*
*Üz-üzə...*
*Birlikdə...*
*Sonra qayırdın*
*Mahana naqqalasın*
*Çəkdin dərəcə ayrılığa!!!*

*Get bə get*
*Fasiləmız hey uzanır!!!*
*Sanki bir zaviyədir yollarımız*
*Həyatın müxtəsatında!!!*

# YANINDAKƏN

*Yanındakən*
*A sevgilim,*
*Ürəyim volqan olur*
*Sarsılaraq...*
*Duyğuların sıcaqlığı,*
*Dağlığı*
*Əridir gür səsimi...*
*Sözlərim bulud-bulud buxar olur...*
*Gözlərim yağış-yağış*
*Yağır...*
*Yağır...*
*Nədən isə*
*Bacarmıram*
*Oxuyam*
*Yazdığım şeiri sənə!?*
*Pəs al oxu*
*Qoy oxusun şeir məni...*

# İTKİN

*Bir dönüb baxdın*
*Və getdin...*
*O olaydan tapılan anlarda*
*Axtarıram*
*İki gözgü ortasında...*

□□□

*Tapanmıram!!!*

□□□

*Yox...*
*Yox...*
*Tapanmaram.*
*Axı mən*
*Özümü baxışında itirmişəm!*

# ÜSGÜK

*Sevdamıza*
*Sevgi paltarı tikdirən barmaqlara*
*Mən üsgüyəm,*
*Ta ki tək*
*Sənlə məni*
*Giciyin,*
*Pis görüşün,*
*Ayrılığın*
*Və həsrətin*
*İynəsinin soxulmasından*
*Qoruyam...*

# ZƏNG

*İçimdə ölmüş idin...*
*Tilfun zəng çaldı.*
*Alo...*
*Alo...*
*Səsin can doğdu,*
*Dirildin!*

□□□

*Bilmirəm...*
*Haçan öldürəcəksən məni!*
*Sadəcə*
*Bunu*
*Başa düşürəm:*
*((Səndən*
*İçimə*
*Addım atan hər bir zad*
*Gəbədir!!!))*

# SƏNLƏ ÇAĞ...

*Mən səni*
*Quylamışam geçmişimə...*
*İndilikdə yaşatmışam...*
*Gələcək,çin*
*Bəslədərək göyətmişəm...*

# İKİNCİ BÖLÜM

# *Klasik şeirlər*

# AYAQSIZ GƏLİŞ

*Küçədə gəliş ayaqsız, saatda zaman donub!*
*Bu qanadsız baxışım yollara həsrətlə qonub!*

*Onda birdən-birə, qartal xəyalin yüksələrək*
*Görürəm; güz nəfəsim göy üzünə ahı yonub!*

# ÖZÜM, ÖZÜMDƏ...

*Axtarıram, özüm özümdə itmişəm!*
*Noqta kimi başlanışımda bitmişəm.*
*Təkliyimi neçələrdən qopardaraq,*
*Mənliyimi bizlər içrə əritmişəm.*

# İNDİ DƏ...

*Gül olub açırdın qonça-qonça sözlərimdə.*
*Yaş olub axırdın damla-damla gözlərimdə.*

*O günlərdən illər ötdü, amma indi də bax;*
*Yaşayırlar səni sözlərim də, gözlərim də..!*

# HƏSRƏT DUVARI

*Bu gecə həsrətivi dırnağımda törətmişəm.*
*Dırnağın cırmağını duvarlara yönətmişəm.*
*Yumuruqla sorğuya hey çəkərək duvarları,*
*Ayrılıq göyündə bax; əllərimi göyətmişəm.*

# ÖZÜ GƏLSİN...

*Sən əsmə səba, söylə o yarin özü gəlsin...*
*Qonça dodağı, sərv boyu, qaş-gözü gəlsin.*
*Qeyr-i mey-ü məşuqəni saqi eşiyə at,*
*Qoy mahnı, qəzəl məhfilimizdə sözü gəlsin.*

# QOŞA

*Göz tikmişəm gözə, baxışlar qoşa...*
*Eşq şeirin gərək baxışlar qoşa.*
*Sevgililər baxışmasında gərək;*
*Əylənə duyğular, oynaya, qoşa...*

# ODUN DA...

*Od məndədir, odda yanan odun da.*
*Heç od belə yanqı doğmaz odunda.*
*Şêrim nədən sızlar sorma həmişə!?*
*Gərək yana yaş da quru odunda!!!*

# DURMA YAZ

*Mən görəni ey qələmim durma, yaz.*
*Dərd olmazsa, gözlərdə yaş doğanmaz.*
*Bax; duyuram sənfonisin ahların,*
*Ildırımsız göydən yağış yağanmaz.*

# YAXA

*Xəyalın gəlibdir, buraxmır yaxa!!!*
*Qorxuram; həsrətin dünyamı yaxa...*
*Səslirəm gecədə gəl dahı ışıq,*
*bəlkə bu daxmama çıxıb ay axa...*

# İLQARA...

*Sən getmişsən bu il, giyib il qara!*
*Tüm fəsillər qışdır, batıb il qara!!*
*Yar diyərək mənə, qoyub getmişsən;*
*Çaşqınam o sözə, belə ilqara!!!*

# TAKTİK İLƏN

*Zaman yenə atın sürür tak-tik ilən...*
*Gözləyişin yollarına göz tikilən...*
*Bir zamanlar gözləməyi bilməz idim,*
*fələk bizə oynur oyun taktik ilən.*

# UYARA...

*Qovuşmaq,çin məktub yazdım o yara,*
*Hicran şərhi bəlkə onu uyara...*
*Qəlbim deşir, gözümdən qan tökdürür,*
*Xənçər kimi yara-yara o yara...*

# KÜL

*Al eşqivin odunda mən yanırdım.*
*Kül olaraq önündə calanırdım.*
*Həp acı söz qılıcsız etdin qını.*
*Sevgi səpib söndürmədin yanqını.*
*Ayrılıqla yaxdın məni, qovurdun.*
*Küllərimi püfləyərək sovurdun!!!*

# MƏKTUB BAYATISI

*Sözün mənə ulaşdı.*
*Dağları çıxıb aşdı.*
*Məktubuvu oxurkən,*
*Gözlərim doldu, daşdı...*

# AL MASA

*Axşam üstü günəş yeri al masa...*
*Dənizdə su bənzir qızıl almasa.*
*Yar da gəlir, gözəllik təkmilləşir...*
*Gözəlliyə tamaşaya al masa.*
*Mən vurqunam yara qurban ((Barışan)),*
*Öz yanına məni də yar almasa.*

# AŞİQLİK YERİ

*Baxışıvın haləsində,*
*Yanağıvın çaləsində,*
*Dodağıvın laləsində,*
*Duyğuların baləsində,*
*Gözyaşı şəlaləsində,*
*Sevdamın məqaləsində*
*Mən sənə aşiq sevgilim,*
*Hüsnüvə natiq sevgilim.*

# SON